# "SUMQAYITDA ƏDƏBİ HƏYAT"

## Professor Vaqif Yusiflinin növbəti kitabı

**Təbii ki, ədəbiyyat adamları, xüsusilə yazıçı və şairlərimiz Vaqif Yusifli imzasını yaxşı tanıyırlar. Bütün həyatını, sağlamlığını, necə deyərlər, ömür payını bütünlüklə ədəbiyyata, sözə xidmətə həsr edən Vaqif müəllim özünün zəhmətkeşliyi və yorulmazlığıyla həmişə diqqət mərkəzində olub. Sanki Tanrı onu sözlə baş-başa qalmağa, sözün qatlarına enmək, sözün işıqlı tərəfini görüb onu oxucuya çatdırmaq və nəhayət, sözə "divan tutanlara" yerini göstərmək üçün bu dünyaya göndərib.**

Biz hər dəfə qarşılaşanda istər "Ədalət"in redaksiyasında, istər hətta ayrı-ayrı tədbirlərdə, məkanlarda mən bir şeyi müşahidə etmişəm. Professor Vaqif Yusiflinin çantasında həmişə yeni kitablar olur. Şair və yazıçılarımız onu harda görsələr mütləq öz yeni kitablarını ona bağışlayırlar. Təbii ki, bunun arxasında ədəbiyyatşünas fikrini öyrənmək marağı da dayanır. Hamı bilir ki, Vaqif müəllim ona təqdim edilmiş kitabı hansısa bir küncə atmayacaq, mütləq onu gözdən keçirəcək, qəlbinə, ruhuna doğma nə isə gördüsə və yaxud qəlbini, ruhunu nə isə incitdisə, onda müəllifə öz yazılı fikirlərini mütləq çatdıracaqdı. Bu onun birbaşa sözün qoruyucu missiyasından da irəli gəlir.

Elə ona görə də Vaqif müəllimin söz arenası çox böyükdür. Təkcə Azərbaycan yox, onun hüdudlarından kənarda da Azərbaycan adını yazıb-yaradanlar Vaqif Yusiflinin təhqiqat obyektidi.

Professor Vaqif Yusifli digər tənqidçilərimizdən fərqli olaraq ədəbi camiyəmizin əhatə dairəsini həmişə diqqət mərkəzində saxlayır. Belə ki, onun münasibət bildirdiyi ədəbiyyat nümunələri təkcə paytaxtda yaşayanların yaradıcılığı ilə məhdudlaşmır. O, bölgə ədəbiyyatını da, bölgələrdə yaşayıb, yazıb yaradanları da həmişə oxucu diqqətinə çatdırır.

Bu günlərdə işıq üzü görmüş "Sumqayıtda ədəbi həyat" kitabı da Vaqif Yusiflinin məhz həmin bölgə ədəbiyyatı ilə bağlı bizlərə təqdim etdiyi ədəbi nümunələrdən biridir. Kitabın redaktoru akademik, millət vəkili İsa Həbibbəyli, kitabın rəyçisi professor, filologiya elmləri doktoru Qəzənfər Paşayevdir.

Elə buradaca onu da vurğulayaq ki, kitab "Avroasiya Beynəlxalq Araşdırmalar İnstitutu" İB və Regional Hüquq və İqtisadi Maarifləndirmə" İctimai Birliyinin dəstəyilə çap olunubdur. 330 səhifəyə yaxın həcmi olan bu kitabda Sumqayıtda yaşayıb, yazıb, yaradan şair və yazıçılarımızın yaradıcılığından bəhs olunur. Maraqlıdır ki, həmin müəlliflərin arasında dünyamızı vaxtsız tərk etmiş unudulmaz söz adamları da var. Mən şəxsən Vaqif İbrahimin, Sabir Sarvanın, Şaiq Vəlinin adlarına bu kitabda rast gələndə tanıdığım bu insanların ruhu qarşısında təkrar baş əydim.




Kitaba ön söz yazmış Əli Kərim adına Sumqayıt şəhər Poeziya klubunun direktoru Mahmud Kaşkari və Şahmar Əkbərzadə ədəbi ədəbiyyat mükafatları laureatı şair İbrahim İlyaslı vurğulayıb ki, "Çağdaş ədəbi tənqidimizin ünlü ismi, aparıcı imzası, filologiya elmləri doktoru, görkəmli tənqidçi Vaqif Yusiflinin bu kitabı Sumqayıt ədəbi mühitinə ilk və bütöv mühitinə tənqidçi baxışının nəticəsi olaraq qarşımızdadır". Zənnimcə, İbrahim İlyaslının bi fikirləri əlimizdəki toplu barəsində özü-özlüyündə hər şeyi deyir.

**Mən də bir oxucu olaraq Əşrəf Veysəllinin, Əvəz Mahmud Lələdağın, Məmməd İlqarın, Rafiq Yusifoğlunun, Əli Nəcəfxanlının, Sabir Yusifoğlunun, Əyyub Qiyaslının, İbrahim İlyaslının, Emin Pirinin və digərlərinin barəsində bu kitabda oxuduğum fikirlərdən məmnun qaldım. Ona görə də bir oxucu olaraq filologiya elmləri doktoru Vaqif Yusifliyə təşəkkür edib, can sağlığı və uğurlar diləyirəm.**

**Əbülfət MƏDƏTOĞLU**

Ədalət 2019.- 19 noyabr.- S.5.